# İlham Əliyev: Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əldə edilən nailiyyətlərin statistikasını açıqlayan dövlətimizin başçısı vurğuladı ki, heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz**

**Azərbaycan ölkədə aparılan köklü iqtisadi islahatlar nəticəsində orta gəlirli dövlətdən yüksək-gəlirli respublikalar səviyyəsinə yüksəlməkdədir. Bu, Prezident İlham Əliyevin qarşıdakı illər üçün müəyyənləşdirdiyi hədəf, verdiyi başlıca tövsiyəsidir. Həyata keçirilən sənayeləşmə proqramının icrasının nəticəsidir ki, əsas istiqamət kimi daim diqqət yetirilən qeyri -neft sənayesi 14, qeyri-neft sektoru isə 9,3 faiz artmışdır. Beynəlxalq səviyyəli aparıcı reytinq agentliklərinin statistik göstəricilərini təsdiqləyən Dünya İqtisadi Forumunun hesabatlarında qeyd olunduğu kimi, dinamik inkişafı ilə diqqəti cəlb edən Azərbaycanın 148 ölkə arasında 38-ci yerdə qərarlaşması gələcəyə hesablanmış düşünülmüş siyasətin, lider qətiyyətinin məntiqi ifadəsidir.**



Dayanıqlı ictimai-siyasi sabitlik, zəngin potensial, şaxələndirilmiş iqtisadiyyat və qeyri-neft sektorunun inkişafı, dünyada siyasi-iqtisadi zərurətə çevrilmiş neft-qaz hasilatında və nəqlində artan imkanlarımız, böyük transmilli layihələr üzərində aparılan işlər, "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində atılan məqsədyönlü addımlar ölkəmizin tükənməyən sərvətlərindən səmərəli və xalqın mənafeyi baxımından istifadə ilə mümkün olmuşdur. Bu gün dövət büdcəsinin 25, strateji əhəmiyyətə malik valyuta ehtiyatlarının 50 milyard dolları ötməsi ən prestij göstərici, inkişafın Azərbaycan modeli kimi qabaqcıl təcrübə hesab olunur və təbliğ edilir. Bu günədək 3 dəfə artan, qarşıdakı on ildə isə daha iki dəfə artırılması proqnozlaşdırılan ÜDM-də özəl sektorun rolu xüsusilə qeyd olunmalıdır. Dinamik inkişaf mərhələsində olan Azərbaycanın əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, şaxələndirilməsi, əhalinin rifahının beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əldə edilən nailiyyətlərin statistikasını açıqlayan dövlət başçımızın giriş və yekun nitqləri ictimai xarakter daşımaqla, daha çox insanları düşündürən məsələləri əhatə edirdi. İclasda insanları maraqlandıran əsas prioritetlər barədə məlumat verən Prezident İlham Əliyevin nitqi göstərdi ki, ölkəmizin dövlət siyasətində insan amili daim öndə dayanır, ölkə əhalisinin maraqlarını ifadə edən kompleks proqramların həlli dövlət başçımızın təşəbbüslərinin əks olunduğu inkişaf konsepsiyasının əsas istiqamətlərindəndir. Region dövlətləri, MDB və Avropa ölkələrinin üzləşdikləri iqtisadi, maliyyə böhranı illərində də respublikamızın dinamik inkişafını göstərən nikbin rəqəmlər, Azərbaycan reallıqları diqqəti cəlb edir. İclasda müzakirə olunan müvafiq dövr üçün göstəricilər biri-birindən uğurlu olmaqla gələcək inkişafın təməlinin daha dayanıqlı olmasının da qarantıdır.

İqtisadi islahatlarla paralel aparılan və möhkəmlənən maliyyə imkanları hesabına əhatə dairəsi genişlənən sosial sahədəki uğurlar da sevindiricidir.

Cari ilin birinci yarısında 60 minə yaxın yeni iş yeri açılmışdır ki, onlardan 48 mini daimidir. Azərbaycanda, ümumiyyətlə, son 12 il ərzində 1 milyon 400 min iş yeri açılmışdır ki, onlardan 1 milyonu daimi iş yeridir. İşsizlik və yoxsulluğun ölkə üzrə 5 faizə endirilməsini Avropada eyni göstəricinin 25-27 faiz olması ilə müqayisə etsək Azərbaycanda ümumi inkişaf, əhalinin həyat tərzi barədə aydın təsəvvür yaratmaq olar. Mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliyin, yoxsulluğun aradan qaldırılması ilə bağlı görülən tədbirləri yüksək qiymətləndirirlər.

İclasda Azərbaycanda keçirilən I Avropa Oyunları ərəfəsində və yarışların davam etdiyi müddətdə ermənipərəst dairələr tərəfindən ölkəmizə qarşı aparılan məkrli kampaniyanın səbəblərini prinsipiallığı ilə bildirən Prezident İlham Əliyev, eyni zamanda, təxribatlarda fərqlənən və respublikamıza qarşı ikili siyasət yeridən mənfur qüvvələrə mesajlarını da qətiyyətlə çatdırdı.

Dövlətimizin başçısı belə təşkilatlarda ölkəmizin təmsilçiliyinə bir daha diqqət yetiriləcəyini bildirməklə vurğuladı ki, Azərbaycan heç zaman arxa planda dayanan ölkə statusu ilə razılaşmayacaq. Təxribat xarakterli kampaniyalara yol verən ATƏT, AŞPA kimi qurumlarla münasibətlərə kölgə salan ikili standartlara qarşı mübarizə aparılacağını bu təşkilatlarda yer alan qərəzli qüvvələrə çatdırdı: "Mən hesab edirəm ki, əgər bu gün biz bu vəziyyəti nəzərə alaraq seçim etməli olsaydıq, bəlkə də Avropa Şurasına da üzv olmazdıq. Azərbaycanı nə qədər təhqir etmək olar? Bizi nə qədər alçaltmaq cəhdləri göstərilə bilər? Artıq bizim hövsələmiz tükənib. Biz Avropa Şurasız da yaxşı yaşaya bilərik, yaşamışıq da...Biz oraya üzv olmuşuq ki, ilk növbədə Qarabağ problemi həll edilsin. ... Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamofobiya, paxıllıq, bədniyyət. Bax, bu yaxınlarda Avropa Oyunları zamanı qətnamə qəbul edirlər. Qətnamənin məruzəçilər tərəfindən təklif edilmiş mətnində yazılmışdır ki, assambleya nəzərə alır ki, Azərbaycan torpaqları işğal altındadır. Götürüb o cümləni dəyişirlər, yazırlar ki, assambleya nəzərə alır ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Yəni bu, nə deməkdir?! Bu, açıq-aydın antiazərbaycan mövqeyidir."

Belə ədalətsizliyin Azərbaycanın inkişafına qısqanclıqdan yarandığını xarici jurnalistlər, ekspertlər də təsdiqləyirlər. Həsəd və paxıllıqlar bir həqiqətə aydınlıq gətirir: Azərbaycan bu inkişaf yolunda heç kimdən yardım almamaqla, başqalarının sözləri ilə idarə olunmamaqla öz yolunu düzgün müəyyənləşdirmiş, müstəqilliyinin əbədiliyini təsdiqləmişdir: "Çünki biz görürük ki, beynəlxalq hüquq normaları işləmir. Kimin gücü varsa, o da haqlıdır və bu, reallıqdır. Bu, xoşagəlməyən reallıqdır, ancaq biz real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Ona görə, hərbi güc gələcəkdə hər bir ölkənin maraqlarının ilk növbədə təmin edən amil olacaqdır...

Beynəlxalq davranış qaydaları dəyişilir, kim necə istəyir beynəlxalq hüquq normalarını elə də yozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir. Biz də buna hazır olmalıyıq və hazırıq. Ona görə, gələcəkdə də ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, daha da ciddi diqqətə malik olmalıdır" söyləyən dövlət başçımız İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyişin olmadığını da ikili standartlar, diktatura rejimi ilə idarə olunan təcavüzkara dəstək adlandırmaqda haqlı olduğunu bildirdi:

"Bizim siyasətimiz Azərbaycan maraqları üzərində qurulubdur. Heç bir kənar qüvvə bizim siyasətimizə təsir edə bilməz."

Ölkəmizdə keçirilən mötəbər beynəlxalq tədbirlər zamanı mənfur niyyətlərini, antiazərbaycan təbliğatını formalaşdırdıqları "beşinci kolon" vasitəsilə həyata keçirməyə çalışan heç bir kənar qüvvə müstəqil dövlət olan Azərbaycanın siyasətinə təsir edə bilmədi. Bütün cəhdlər məğlubiyyətə uğradı. I Avropa Oyunları zamanı ATƏT, AŞPA, hətta heç bir ölkənin daxili işlərinə qarışmaq səlahiyyəti olmayan Almaniya Bundestaqının ölkəmizlə bağlı qəbul etdikləri əsassız sənədləri təxribat kampaniyasının bir istiqaməti adlandıran Prezident İlham Əliyev bildirdi ki, bu kampaniyada iştirak edən dünya erməniliyi, erməni lobbisi bizi hədəf seçib, onların himayəsində olan riyakar, rüşvətxor siyasətçilər bu işlərə qoşulub: "Xüsusilə, bu, Qərb siyasətçilərinə aiddir. Erməni pulları ilə özünə həyat quran konqresmenlər, senatorlar, deputatlar, islamofob siyasətçilər və s. ünsürlər Azərbaycana qarşı müharibə elan ediblər. Əfsuslar olsun ki, bu gün Avropada faşizm, irqçilik, islamofobiya, ksenofobiya, antisemitizm baş qaldırır...Yəni Avropa Oyunları ərəfəsində və Oyunlar zamanı bizə qarşı informasiya müharibəsi ən şiddətli mərhələyə qədəm qoymuşdu. Ancaq bu informasiya müharibəsində Azərbaycan xalqı və dövləti qalib gəlib. Çünki bu kampaniya və bu kampaniyanın son mərhələsi bir daha göstərib ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz."

Avropa Oyunlarının açılışına iki gün qalmış Avropa Parlamentinin antiazərbaycan qətnaməsini, Avropa Parlamentinin sədri Şults, onun müavini Lunaçek və onların əlaltılarının Azərbaycana qarşı apardıqları kampaniyanı qətiyyətlə pisləyən və müstəqil dövlətin daxili işlərinə müdaxilə adlandıran cənab İlham Əliyev Almaniya Bundestaqında Oyunların açılışı gündə - qəbul olunan qətnaməni qətiyyətlə rədd etdiyini və tanımadığını bildirir: "Bu qətnamənin mövzusu antiazərbaycan və yalan üzərində qurulubdur. Sual olunur, Almaniya Bundestaqının bizimlə nə işi var və Almaniya Bundestaqı özünü nə zənn edir? Dünyanın ağasıdırmı? Dünyaya hakimdirmi? Hamı onlara tabe olmalıdırmı? Görünür ki, onlar pis öyrəşiblər. Amma bizi başqaları ilə müqayisə etməsinlər. Bizim onlarla münasibətlərimiz distansiya səviyyəsindədir. Bizim onlardan heç bir istəyimiz yoxdur, əksinə, bizim təbii qazımız, kontraktlarımız, neftimiz, bu ərazidə, bu coğrafiyada fəaliyyətimiz onlara lazımdır... Onlardan heç bir asılılığımız yoxdur. Ona görə Almaniya Bundestaqı kimdir ki, antiazərbaycan qətnamə qəbul etsin?! Getsin öz işi ilə məşğul olsun. Bəsdirin, başqa ölkələrin daxili işlərinə müdaxilə etdiniz, biz buna imkan verməkrik. Ancaq mən nəyi demək istəyirəm, bax, budur yanaşma. Nəyə görə? Çünki boğulur, partlayır, barışa bilmir ki, Azərbaycan uğurla inkişaf edir, dünyada müsəlman ölkəsi - Azərbaycan bu gün Avropa Oyunlarını hansı səviyyədə keçirir."

Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev cəsarəti dövlət başçısı olduğunu növbəti dəfə bədxahlarımıza çatdırdı: "Yəni bu nə deməkdir, bu nə düşmənçilikdir və siz kimlə düşmənçilik edirsiniz, Azərbaycanla?! Biz düşmənçilik edə bilərik, kim bundan zərər çəkər onu onlar yaxşı düşünsünlər. O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə, heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik."

**Xuraman İsmayılqızı, *"İki sahil"***